**Doktor C. N. Ləmbəranski**

Daxiliyyə və cərrahiyyə naxoşluqlarına müalicə edir. Qəbul olunur gündüzlər 10-dan 12-yədək; axşamlar 5-dən 7-yədək.

Ünvan: Birjavaya küçə 8, telefon 57-30.

*14040*

**Doktor Mustafa bəy Hacıqasımov**

Xüsusi arvad naxoşluqlarına müalicə edir. Qəbul edir axşamlar saat 4-dən 6-yadək, cümə günlərindən başqa. Adres: Vorontsovski küçə, nömrə 17. Doktor Qarabəyovun müalicəxanası.

*14034*

**Doktor İ. M. Bronşteyn**

Xüsusi əmrazi-zöhrəviyyə, dəri və daxiliyyə naxoluqları qəbul edir. Hər gün səhər saat 10-dan 1-ədək; axşam saat 4-dən 7-yədək. Şamaxinka 12, telefon 4-21.

*14003*

**Diş həkimi S. M. Hamburq**

Dişlərin müalicəsi və ağrısız çəkilməsi, kauçuk, qızıl və platina üzrə hər növ işlərin qəbulu. Qulluqçulara güzəşt olunur. Qəbul olunur saat 9-dan 2-yədək, 4-dən 6-yadək. Nkolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*14059*

**Elan**

Həmin sənədə təşrini-saninin 1-də "Azərbaycan" qəzetəsinin 235-ci nömrəsində pambıq toxumlarının ixracı xüsusunda verilən elana əlavə olaraq Ticarət, Sənaye və Ərzaq Nəzarətinə pambıq toxumlarının ixracı üçün ərizə verənləri Ticarət, Sənaye və Ərzaq Nəzarəti icazənamə almaqdan ötrü dəvət edir.

*İmza etdi: nazir [Ağa] Əminov*
*Müdir: [Abbasəli bəy] Makinski*
*T-353*

***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Sirk "Modern"**

səh. 483. "kinto": Xırda ticarətlə məşğul olan gürcülərə, xüsusilə Tiflisdə meyvə-tərəvəz satanlara deyilirdi. Şən, zarafatcıl və hiyləgər kinto obrazına gürcü folklorunda, eləcə də gürcü ədəbiyyatında, təsviri incəsənətində və kinosunda tez-tez rastlanır.

**Teleqraf xəbərləri**

səh. 492. "Kokçetovsk": Qazaxıstanda indiki Kokşetau şəhəri nəzərdə tutulur.

səh. 493. "Treuqolnik": Sankt-Peterburqda, əsası 1860-cı ildə qoyulmuş rezin fabriki. 2002-ci ildə fəaliyyətini dayandırmışdır.





**Çərşənbə axşamı, 25 noyabr 1919-cu il, nömrə 329**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 2 rəbiüləvvəl sənə 1338. 25 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

**DÖVLƏT TEATROSU**

**Azərbaycan Dövləti Teatro heyəti**

Səşənbə [çərşənbə axşamı] günü
təşrini-saninin (noyabrın) 25-də
opera mövsümü açılmaq münasibətilə
təntənəli bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
Hacıbəyli qardaşlarının
yazmış olduğu məşhur
**"Leyli və Məcnun"** operası.
Həmin opera üçün bu dəfə
yeni və gözəl dekorasiya
və libaslar hazırlanmışdır.
Xor və qeyri iştirak edən əşxasın
[şəxslərin] ədədi artırılmışdır. Böyük
musiqi orkestri Müslim bəy Maqomayevin təhti-idarəsindədir.
Biletlər indidən teatrın kassasında
opera qiymətləri ilə satılır.
Tamaşa axşam saat 8 tamamda
başlanacaqdır.
Qeyd: İkinci zəng vurulduqdan sonra
hər kəsin öz yerində əyləşməsi
rica olunur.
Gələcək tamaşa: Cümə günü təşrini-saninin (noyabrın) 28-də "Əlmənsur".

*Dövləti Teatro vəkili: M. Ə. Sidqi*
*T-354*

**SİRK "MODERN"**

**Mübarizənin son günləri**

Səşənbə günü noyabrın 25-ndə 1919-ncu ildə Qara Maskanın benefisidir. Zakoroyko ilə Qara Maskanın görülməmiş İngiltərə boksu.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

Hamı mübarizələr qətidir. 1-nci: Qara Maska – Kalişeviç; 2-nci: Staroşvili – Oleynikov; 3-ncü: Yermak – Raqenbaum.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, tamam olacaqdır 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Bu günlərdə məşhur rus sportsmeni Yelizarovun 15 sənəlik yubileyi olacaqdır.

*14080*

**"İSTİQLAL" MƏCMUƏSİ MÜDİRİYYƏTİNDƏN**

Cümhuriyyətimizin səneyi-dövriyyəsi [ildönümü] münasibətilə nəşr ediləcək "İstiqlal" məcmuəsinin bir taqım texnik səbəblərlə təxiri, müdiriyyətə məcmuəni daha mükəmməl bir surətdə nəşr etdirmək əzmini təlqin eylədiyindən,

məzkur [adı çəkilən] məcmuəyə iştirak edə biləcək mühərrir əfəndilərə ixtar [xəbərdarlıq] olunur ki, Azərbaycanın coğrafiya, topoqrafiya, mə'dəniyyat və ərziyyatına [mədənlərinə və geologiyasına] aid, öylə də ticarət və sənaəti [sənayesi] haqqında elmi və müfəssəl məqalələr yaza bilərlər. Ədəbiyyat və sənayeyi-nəfisə [incəsənət] qisminə yazılacaq mövzulara dəxi yer vardır. Bilxassə teatrolarımız və tarixi haqqında yazılacaq əsərə əhəmiyyət veriləcəkdir. Göndəriləcək məqalələrə, idarəcə qəbul edildikdən sonra, hədiyyeyi-qələmiyyə [qonorar] olmaq üzrə kafi dərəcədə mükafat veriləcəkdir. Məqalələr gələcək yanvarın 15-ə qədər idarəyə təslim edilməlidir:

"Azərbaycan" idarəsi, "İstiqlal" müdiriyyətinə.

*T-361*

## BAKI MÜSƏLMAN CƏMİYYƏTİ-XEYRİYYƏSİ

Bələdiyyə binasında Klub imarətində 28 təşrini-sani axşam saat 6-da Cəmiyyəti-Xeyriyyənin himayəsində olan müsəlman qaçqınlarının nəfinə [xeyrinə] "Bir piyalə çay" məclisi təşkil olunacaq. Xüsusi dəvətnamə almamış əşxas [şəxslər], dəvətnaməni məclisə daxil olan zaman ala bilər.

*Cəmiyyəti-Xeyriyyə idarəsinin*
*sədri Qasım Qasımov*
*T-358*

## BAKI BƏLƏDİYYƏ İDARƏSİ

Bununla elan edir ki, şənbə günü həmin noyabr ayının 29-da saat 11 tamamda torq [hərrac] təyin etmişdir. Torqa qoyulan 2 parça şəhər yerləri Bandarnı küçədə şəhər (sabiqdə Aşurovun) evinin yanında. Məzkur [deyilən] yerlərin planı və şəraitini Bələdiyyə İdarəsində Ərazi şöbəsində hər gün görmək mümkündür.

*Bələdiyyə İdarəsi*
*T-359*

* * *

Həmin sənə təşrini-əvvəlin [oktyabrın] 11-də olan Vükəla Şurasının [Nazirlər Kabinetinin] qərardadı mövcibincə bütün telefonların məzənnəsi 1 sənəyəcən iyul ayının 1-dən 1919-cu sənədən hesab etmək üzrə 100 faiz (100%) artırılır.

Bakı telefon xəttinin möhtərəm müştərilərindən 7 günün müddətində göstərilən 100 faizi Bierinq və kompaniya yoldaşlarının sandığına gətirilməsi dəvət olunur.

Şəhərin iki verstlik məsafəsində hər aparat üçün 576 rublə;

Şəhərin ortasında (promejutoçnı) 307 rublə 20 qəpik;

Qara şəhərdə 783 rublə 25 qəpik;

Qara şəhərdə (promejutoçnı) 391 rublə 70 qəpik;

Ağ şəhərdə 1059 rublə 85 qəpik;

Ağ şəhərdə (promejutoçnı) 499 rublə 20 qəpik;

Bayılda 645 rublə 10 qəpik;

Bayılda (promejutoçnı) 384 rublə;

Bibiheybətdə 1152 rublə;

Bibiheybətdə (promejutoçnı) 537 rublə 60 qəpik;

Balaxanı, Sabunçu, Binəqədi və Suraxanıda 1920 rublə;

Balaxanı, Sabunçu, Binəqədi və Suraxanıda (promejutoçnı) 576 rublə;

Əlavə aparata 192 rublə;

Zəng üçün 38 rublə 40 qəpik;

Altı nömrəyə kommutator 384 rublə;

12 nömrəyə kommutator 499 rublə 20 qəpik;

25 nömrəyə kommutator 614 rublə 40 qəpik.

*14082*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Bakı Müstəhkəm Dairəsi general-qubernatorunun elanı**

*23 təşrini-sani 1919 sənə*

Bakı Müstəhkəm Dairəsinə 15 təşrini-sanidə verdiyim məcburi qərardada əlavə olaraq elan edirəm:

Mülk sahibləri, oda sahibləri, mehmanxana və nömrə sahibləri, Azərbaycan təbəəsi olsalar da, sükunət etmiş əşxası [şəxsləri] siyahıya düşmədən gizlətmiş və ya polis uçastkasına evlərində olan əşxas haqqında məlumat verməmiş olsalar, yuxarıda yazılmış qərardadi-məcburi əsasına binaən [hökmlərinə görə] Bakı müstəhkəm dairəsindən çıxarılacaq və həman qərardadda göstərilən tənbehlərə düçar, yəni 3 ay həbsə və həbs müddəti qurtardıqdan sonra idareyi-əsgəriyyə [hərbi rejim] davam etdiyi müddətcə Azərbaycan dairəsindən çıxarılacaqlardır.

*Bakı Müstəhkəm Dairəsi*
*hərbi general-qubernatoru*
*general-mayor Murad Giray Tlexas*

## KÖNÜLLÜ ORDU VƏ KUBAN ARASINDA İXTİLAF

Kubanda son günlərdə zühura gələn hadisələr şayani-diqqət [diqqətəlayiq] bir şəkil aldığı kimi, müəyyən bir hədəfi də göstərdiyindən, az-çox bu mövzuda bizim də məşğul olmamız icab edir [lazım gəlir].

Kuban hadisələri hər şeydən əvvəl sabiq Rusiyada elani-istiqlal edən millətlər üçün canlı bir əlaqə və mənafeyi təmsil etməkdədir.

Sülhi-Ümumi Konfransına; sabiq Rusiya müstəqil millətləri ilə birlikdə kazaklar istiqlaliyyətini müdafiə edən Kuban Cümhuriyyətinin mürəxxəslər [nümayəndələr] başçısı L. L. Bıç, bu müdafiəsini yalnız Versalın yaşıl masasındakı qərarlara ithaf etməyir, Parisin vəlvələdar [səs-küylü] mətbuatı arasında da bir Kuban mövcudiyyətini, bir kazaklar istiqlaliyyətini, bir həqqi-siyasini də bütün imani-milli və siyasisi ilə anladır, bildirir.

Bıç Parisdə çıxan "L'Europe orientali" məcmuəsində nəşr etdiyi bir məqalədə Rusiyada böyük bir Rusiya hökumətinin qeyri-qabili-təşəkkül olduğunu [qurulmasının mümkün olmadığını] hürriyyətpərvər bir mütəfəkkir, möhibbi-həqiqət [həqiqət aşiqi] bir alim kimi isbat edir:

*"Bir hökuməti təşkil etmək üçün* – Bıç yazır – *iki başlıca qüvvət lazımdır: biri əfkari-ümumiyyə, ikincisi qüvayi-hərbiyyə. Halbuki Rusiyada bu iki qüvvətdən heç biri də yoxdur. Sibiryadan hərəkət edən Kolçak ordusu, Rusiyanın cənubunda amadeyi-istila [istilaya hazır] duran Denikin qitəatı [hərbi hissələri] həqiqi rus*

*camaatından o qədər ayrı və həqiqi Rusiya demokratiyasının [xalqının] mənafeyinə o qədər zidd birər qüvvətdirlər ki, heç bir fərd könül rizası ilə öz məmləkəti, öz ana vətənini tərk edib də bu generallara iltihaq etməmiş [qoşulmamış], bu generallara heç də qəlbən tərəfdar olmamışdır. Binaənileyh [ona görə], sabiq Rusiyada elani-istiqlal etmiş hər bir millətdən ayrı olaraq özbaşına hərəkət edən generallar heç bir zaman müsmir və vəlud [faydalı və səmərəli] bir nəticə əldə edəmməzlər. Bu qüvvətlər saxta, bu qüvvətlər uydurma şeylərdir..."*

İştə, Kuban Cümhuriyyətinin olduqca nüfuzlu bir başçısı böylə düşünərkən, Kubanda Könüllü ordu komandanı Denikin də Bıçı və Bıç ilə həmfikir olanları divani-hərblərə [hərbi məhkəmələrə] verir, millətin arzu və amalına mane olur.

İxtilafın səbəbləri şu ki, Könüllü ordu Kuban kazaklarını kəndi hökmünə alıb, onlarda milli bir hakimiyyət fikrini öldürməyə, bu surətlə sahə açmaq istəməsidir.

Kuban radasının [xalq məclisinin] başında bulunan Ryabovol, [İvan] Makarenko və Bıç, filhəqiqə [doğrudan da], kazaklar arasındakı müxtəlif siyasi cərəyanlar dolayısı ilə bir əksəriyyəti ehraz etməyirlərsə [əldə etməyirlərsə] də, kazaklar arasında bu əqəliyyətin [azlığın] getdikcə nüfuz bulduğu görülməkdədir.

Makarenko, Bıç kimi ən ziyadə istiqlalçı bir sima olduğu halda, radanın rəyasət intixabatında [seçkisində] 158 səsə qarşı 253 səs almış və radada hakim olan siyasi fikirlər Makarenkonun lehində çıxmışdır.

Bu müxalif cərəyanın Kuban kazakları arasında bir əksəriyyət ehraz etməsi, onlara yeni bir saheyi-fəaliyyət açdığı kimi, camaatın daha da etibar və əmniyyətini [inamını] cəlb edə biləcəkdir.

General Filimonov kimi Könülü orduya fəzlə bir təvəccöh [rəğbət] bəsləyən və Kuban kazaklarının ayrı bir ordu təşkil etmələrini tamamilə qeyri-mümkün, qeyri-qabili-tətbiq əd [hesab] edən və kazaklar arasında müqtədir generalların bulunmadığını söyləyən bir simaya qarşı, kazakların səlahiyyətdar və müntəxəb [seçilmiş] bir siması olan Makarenko nə kinayəli bir cavab vermiş:

*"Nasıl olur ki, Kuban nizampərvər və işbilən generallar doğurmamışdır?"*

Bu sözlər də isbat edər ki, Kuban kazaklarının arzuyi-millisinə, amali-siyasiyyəsinə istinad edən rada hər zaman kazaklar arasında müqtədir generallar da çıxara bilər, müqtədir zabitlər də bular.

Binaənileyh [ona görə], şimdiyə qədər ikiüzlü olaraq davam edən Kuban Cümhuriyyətinin siyasəti müəyyən bir şəklə girmək üzrədir. Bunun da əlaməti, Yekaterinodardan son günlərdə gələn xəbərlərdir.

Kuban Cümhuriyyətinin birillik istiqlaliyyəti münasibətilə rada hüdudlardakı əsakiri [qoşunları] bir yerə toplamağa başlamış və bizzat rada da [rada özü də] Yekaterinodara köçmüşdür. Deməki, Könüllü ordunun Kubanı mühasirə etməsi və ara yerdəki ixtilafın müğləq [anlaşılmaz, qeyri-müəyyən] bir şəkildə qalması artıq qəti bir təriqə [yola] girmiş və bu gün deyilsə də, yaxın bir zamanda tamamilə müstəqil bir Kuban Cümhuriyyəti və Kuban ordusunun qüvvətlənməsi bir əmri-vaqe halına girmişdir.





Biz, həqiqətən, inanırız ki, müstəbid və mütəhəkkim [hökmran] bir Könüllü ordu idarəsinə heç bir Rusiyada əmələ gələn müstəqil millətlər daxil olammayacağı kimi, Kuban da bütün qüvvəti ilə buna müariz [zidd, müxalif] olub, kazakların milli arzu və amalına görə bir təyini-müqəddəratı təmin edəcəkdir.

İştə, radanın arzuyi-milli ilə tövəm [birgə; əkiz] olaraq hazırlandığı mübarizədə əhvali-ümumiyyeyi-siyasiyyənin son təbəddülatı [dəyişiklikləri] dəxi bunu əmr və təmin etdiyi üçün, əlbəttə, müvəffəq və müzəffər ola biləcəkdir.

*Ə[hməd] H[əmdi] [Qaraağazadə]*

**TELEQRAF XƏBƏRLƏRİ**

*(Azərbaycan simsiz telqraf mövqifi tərəfindən alınmışdır)*

**23 təşrini-sani**

*(Bolşevik xəbərləri)*

**Hərbi əməliyyat**

Narva cəbhəsində bizim yürüşümüz Fin körfəzindən Çud gölünə kimi 100 fərsəx cəbhəsində müvəffəqiyyətli surətdə davam edir. Bizim qoşunlarımız düşmənin Yamburq qərbindəki istehkamatını yararaq ricət edən [geri çəkilən] düşmən hissələrini təqib etməkdədir. 100-dən yuxarı əsir, 5 mitralyoz, top, 40 min fişəng və başqa hərbi qənimətlər alınmışdır.

Pskov və Dvinsk dairəsində kəşfiyyat əməliyyatı və xırda vuruşma davam edir.

Novoqrad-Volınsk dairəsində düşmən hissələrinin müvəffəqiyyətsiz hərəkatı davam edir.

Kiev dairəsində kəşfiyyat əməliyyatı.

Nejin-Vilsk hissəsində təbədüllatsızdır [dəyişiklik yoxdur].

Lqov-Kursk dairəsində düşmən dəmir yoldan cənuba atılmışdır. Qırmızı hissələrimiz tərəfindən düşmənin "General Drozdovski", "Moskva" və "İvan Kalita" adlarında olan üç zirehli qatarı, 7 lokomotiv, 2-i fişəng və 3-ü mühimmat və ərzaq ilə dolu 54 vaqon alınmışdır.

Liski cəbhəsində bizim yürüş edən hissələrimiz Liski mövqifindən 5-10 fərsəx şimala tərəf vuruşmada davam edirlər.

Bobrovsk cəbhəsində - Bobrov şəhərinin 10 fərsəxliyində olan kəndlərdən düşmən tərəfimizdən çıxarılmışdır.

Novoxopyor dairəsində bizim hissələrimiz Terexovo, Buturlinovka və Kasiçev mövqiflərini işğal edərək əsir və qənimətlər almışdır.

Kalaç cəbhəsində biz Xopyor nəhrini əhatə etmişiz.

Don ilə Volqa arasında qırmızı qoşunların yürüşləri davam edir və düşməni cənuba tərəf sıxışdırmaqdadırlar. Süvarəmiz düşmənin arxasına keçərək Piçojniskə müvəffəqiyyətli zərbədə bulunmuşdur.

Tsarev dairəsində vuruşmalarla tərəfimizdən iki kənd işğal edilib, 500 əsir, bunlar cümləsindən 15 zabit, 15 mitralyoz və başqa qənimətlər alınmışdır.

Krasnı Yar cəbhəsində bizim yürüşümüz müvəffəqiyyətli surətdə davam edir.

Lbişensk dairəsində vuruşmalarla Lbişensk şəhəri tərəfimizdən işğal edildikdən sonra, bizim qoşunlarımız tərəfindən 300 əsir, 5 mitralyoz və bir çox başqa qənimətlər alınmışdır.

Kokçetsk cəbhəsində – Kokçetskdən 100 fərsəx cənub-şərqə olan Sandiktovsk mövqifi işğal edilmişdir.

Omsk dairəsində bizim yürüşümüz bilaaram [aramsız] davam edir. Omskdan 120-150 fərsəx cənub-şərqə tərəf bir neçə kənd işğal etmişiz.

**Omsk işğalı ətrafında**

N ordusu qərargahı. Ağlar Omskdan çıxıb getdikləri əsnada həbs edilmiş fəhlə və əsir qırmızı ordu nəfəratını [əsgərlərini] təxliyə edə bilməmişlərdir. Mühafizlər[in] silahını alaraq bizimkilər şəhəri işğal edən qırmızı hissələrin qarşısına çıxmışdırlar. Şəhəri buraxmazdan əqdəm [qabaq] güllələnmələrinə qərar verilən 240 nəfərin 160 nəfəri güllələnmiş və bir hissəsi qaçmışlardır.

*(Gürcü telqraf acentəliyindən)*

**Fransa mətbuatı**

**Yaponiyanın bolşeviklərlə müxabirəsi haqqında**

Sülh Konfransında olan Yaponiya mürəxxəsi [nümayəndəsi] aşağıdakı məzmunda bir nota təqdim etmişdir:

*"Bir para qəzetələr Yaponiya ilə Şura hökuməti arasında bitərəf zəmində müzakirələr aparıldığına dair xəbərlər nəşr etməkdədirlər. Böylə xəbərlər büsbütün həqiqətə müğayirdirlər [ziddir]."*

**Qaliçanın Lehistana ilhaqı**

Ali Şura Şərqi Qaliçanın Lehistana [Polşaya] ilhaq edilməsi [birləşdirilməsi] məsələsini müzakirə etməkdə davam edir.

**Çex-slovakların Sibiryadan təxliyəsi**

Praqadan verilən xəbərlərə nəzərən, nəqliyyat alatı [vasitələri] yoxluğundan Sibiryada olan çex-slovak qoşunlarını aparmaq mümkün olmamışdır. Çex-slovak Xariciyyə Nəzarəti çex-slovakların aparılmaları üçün Müttəfiqlərdən nəqliyyat alatı verilməsini xahiş edir.

*(Qafqaziyadakı Müttəfiqlər heyətinin radio xəbərləri)*

**Fiume məsələsi**

Vaşinqtondan xəbər verirlər ki, Məclisi-Əyan [Senat] Tittoni tərəfindən Fiume haqqında təklif etdiyi güzəştə, slavyan yerlərinin İtaliya təhti-nəzarətinə [nəzarəti altına] verilməsi əsassız olduğu üçün razı olmayacaqdır.

**Şura Rusiyada**

Şura hökumətinin dekreti ilə cəbhə ehtiyacından ötrü işləməyən Petroqrad quberniyasının bütün fabrika və zavodları qapanacaq və əmələləri cəbhəyə göndəriləcəkdirlər.

**Dansiq**

Dansiqdə Müttəfiqlər Ali Komissarlığına 3 müaviniylə İngiltərə polkovnikinin təyini qət edilmişdir.

**Almaniyada gömrük məsələsi**

Almaniya hökuməti Müttəfiqlərə





müraciət edərək gömrük vergilərinin qızıl ilə tədiyə edilməsinə [ödənməsinə] izin verilməsini xahiş etmişdir.

**Amerika qoşunları**

Müttəfiqlərin Reyn mahallarındakı qoşun hissələrini təviz [əvəz] etməkdən ötrü bir dəstə Amerika qoşunları varid olmuşlardır [gəlmişlər].

**Ankaraya heyət**

Fəthi paşa heyəti məqsədi ilə də Anadoluya Türkiyə hökuməti Xurşid paşa rəyasəti ilə Ankaraya bir heyət göndərmişdir.

**SÜLH ƏTRAFINDA**

**Amerikanın Cəmiyyəti-Əqvama təhdidi**

Lord Robert Sesil Avamlar Kamerasında danışarkən beynəlmiləl vəziyyətin hal-hazırda Avropada ciddiləşməsini göstərərək söyləmişdir ki:

*"Zənn edirəm ki, Amerikadan bizə yetişməkdə olan sərtasər [başdan-başa] ciddi xəbərlərə əhəmiyyət verməməyə mən haqsız olaram. Mənim nöqteyi-nəzərimcə, Avropadan ötrü ancaq bir ümid vardır ki, o da bütün rübi-məskunda səriyyən [sürətlə] qüva [qüvvə, güc] və etimad bərpa etməkdədir. Bundan ötrü son dərəcə lazımdır ki, sülh olsun. Bu bir şərtdir ki, onsuz nə etimad və nə etiqada məhəl [yer] ola bilər. Amerika nöqteyi-nəzərincə Məclisi-Əyan tərzi-hərəkətinin qanuni olması haqqında mən heç bir söz söyləmək istəməyirəm. Bu işə mənim heç dəxlim yoxdur. Lakin mənim söyləməyə haqqım vardır ki, böylə geniş qeyd və təshihlər [düzəlişlər] ki, qabaqcadan qəbul olunmuşədd [hesab] edilirlər, Cəmahiri-Müttəfiqənin [Birləşmiş Ştatların] etilafdan təbərra etməsinə [razılaşmadan uzaqlaşmasına] verilən kimidir. Və etilafdan imtina etmək – sülh müahidənaməsindən [sazişindən] imtina etmək mənasındadır. Bundan ən iyi təqdirdə müzakirat və mübahisatın uzun zaman müəlləq [məchul, havadan asılı] qalmasından başqa heç bir şey bəkləmək olmaz. Bəd [sonra], mümkündür ki – bu imkanı biz şimdi nəzərdən dur [uzaq] tutmayalım gərək – bu müzakiratı bitirmədən də yeni bir imtina edilsin. Mən ehtimal edirəm ki, bu fəqərə [fakt] həqiqi bir ciddi vəziyyət yaratmışdır.*

*Məncə, bir şey şübhəsizdir ki, orada nə vüqu bularsa, olsun, lakin Cəmiyyəti-Əqvam tövsiyi-atiyəsinə isal etməlidir [Millətlər Cəmiyyətinin gələcəkdəki genişlənməsinə gətirib çıxarmalıdır]. Sağlam bir sülh üçün bu yalnızca bir ümiddir.*

*Biz həmçinin Amerikanın iştirakını, mən söylərdim ki, hətta Amerikanın təlimat və idarəsini də arzu ediriz. Lakin əgər Cəmahiri-Müttəfiqə işbu beynəlmiləl ali cəmiyyətdə iştirak etməməyi qərara alırlarsa, o zaman biz kəndimiz irəli yürüyəlim gərək. Bu bizim və başqa millətlərin üzərində böyük yük olacaqdır. Fəqət bizim millətimiz və mən şübhə etməyirəm ki, Avropa millətləri də, bu ağırlığı qəbul edərlər. Nasıl ki, beş sənə müharibə zamanında üzərlərinə düşən ağırlığı qəbul etdilər. Və mən ümid edirəm ki, beynəlmiləl vəziyyəti bu xələldar edəmməz [poza bilməz]."*

**Amerika və sülh müahidənaməsi**

London - Amerika Məclisi-Əyanının [Senatının] sülh müahidənaməsini qeyd və təshih ilə qəbul etmək qərarı praktikcə müahidənamənin ilğa [ləğv] edilməsi olduğundan, Paris və Londonda sui-təsir hüsula gətirmişdir. Böylə böhranlı zamanda Vilsonun xəstəliyi övzanı [vəziyyəti] daha da gərginləşdirir.

Rəisi-Cümhurun Sülh Konfransındakı işlərini heçə çıxaran Məclisi-Əyanın işbu tərzi-hərəkətini Amerika xalqının təsvib edib-etməyəcəyi [bəyənib-bəyənməyəcəyi] məlum deyildir. Xarici Məsələlər Komitəsi tərəfindən təklif edilən iki təshihi Vaşinqton Məclisi-Əyanı qəbul edir. (Təshihlər qəzetəmizin keçən nömrələrinin birində dərc edilmişdir.)

## QƏZETƏLƏRDƏN

**Lloyd Corc Rusiya işlərinə müdaxilə edilməsi haqqında**

Rusiya işlərinə bilfeil [əməli] müdaxilə edilməsinə qarşı Lloyd Corc Avam Kamerasında yeni ifadatda bulunaraq bəyan etmişdir ki, əgər ki, namus İngiltərəni, Şərq cəbhəsini mühümmati-hərbiyyə ilə təchiz etmək üçün verdiyi vədəsinə vəfa etməyə məcbur edir, fəqət şimdi işbu vəziyyəti-hazirə içərisində Rusiya Vətəndaş müharibəsini qeyri-müəyyən bir vaxta qədər maddi tərəfindən təchiz etməyi İngiltərə kəndi öhdəsinə götürə bilməz.

Eyni zamanda Lloyd Corc qeyd etmişdir ki, bolşevizm mübarizəsinə İngiltərənin sərf etdiyi məsai [əmək, səy] Fransa, Yaponiya və Cəmahiri-Müttəfiqə hümmətlərindən qayət əhəmiyyətlidir.

**Təncər üstündə münaqişə**

Madriddən xəbər verirlər ki, İspaniya kralı Alfonsonun Fransa və İngiltərəyə əziməti [səfəri] böyük bir mahiyyəti-siyasiyyə daşıyır. Vüzəra [nazirlər] kabinələri arasındakı müzakirat bir nəticə vermədiyi üçün İspaniyanın Təncər və Mərakeşə olan müddəasını İspaniya kralı bizzat [şəxsən] müdafiə etmək xəyalındadır. Fransa ilə İspaniya arasında bu məsələlər üstündə sərzədeyi-zühur olmuş [baş vermiş] ixtilaf qayət kəskinləşmişdir. İspaniya mətbuatının təfsilatından görünür ki, İspaniya kəndi tələblərində sabitcəsinə israr edəcəkdir. "Diario de Versal" qəzetəsi ümid edir ki, Fransa ilə İspaniya arasında hüsula gəlmiş soyuqluq etimadpərvəranə əlaqəyə mübəddəl olar [çevrilər]. Fəqət eyni zamanda bəyan edir ki, Təncərin Fransadan ötrü əhəmiyyəti çoxsa, İspaniyadan ötrü onun əhəmiyyəti qiymətsizdir.

"El liberal" yazır ki:

*"Hökumət əzası [üzvləri] içində bir adam bulunmaz ki, Təncərin İspaniyadan ötrü nə qədər lazım olduğunu və yaxud, heç olmasa, orada hökmranlıq rolu oynamasını zəruriyyatdan ədd [hesab] etməsin."*

**General Yudeniç ordusunun əhvalı**

Dabravol qəzetələri yazırlar ki, ən mövsuq [etibarlı] mənbələrdən alınan xəbərlərə görə, general Yudeniç ordusunun əhvalı fövqəladə müşkülləşmişdir.

İngiltərənin general Yudeniçə etdiyi müavinət haqqında bu qədər ki, söyləyib yazırlar, həqiqətdə isə heç öylə deyildir. İngilislər nə dəniz və nə qara [quru] müharibələrində bilavasitə iştirak etməyirlər. İngilis gəmiləri ancaq Fin körfəzi və Baltik dənizi səvahili [sahilləri] ablukasını [blokadasını] müdafiə edirlər. Müttəfiqlər tərəfindən Yudeniç ordusunun təchiz edilməsi də o qədər feili [praktik] deyildir.

General Yudeniç Estoniya və Finlandadan feili müavinət ala bilərdi. Onlar kömək verməyi təklif etmişlərdi. Fəqət şərt qoyurlar ki, general Yudeniç, Denikin və amiral Kolçak hökumətləri onların istiqlallarını təsdiq edib təminat versinlər. Bu şərt isə məqbul ədd edilməmişdir [sayılmamışdır]. Lakin Estoniya və Finlandada olan İngiltərə və Fransa nümayəndələri, bu dövlətlər istiqlalının Rusiya tərəfindən bilatəxir [dərhal] təsdiq edilməsinin və Məclisi-Müəssisana qədər gözlənilməməsinin tərəfdarıdırlar. Binaənileyh [ona görə], Finlanda təriqi [yolu, vasitəsi] ilə general Yudeniç heç bir müavinət alammayır.

Almanların təklif etdiyi müavinəti-əsgəriyyəni də, məlum olduğu üzrə, general Yudeniç rədd etdi.

Bolşeviklər hal-hazırda istəyirlər ki, general Yudeniç ordusunu Qdov tərəfdən əhatə etsinlər. Petroqradın müqəddəratı da işbu əməliyyatın bitməsindən asılıdır.

* * *

Reveldən [Tallindən] xəbər verirlər ki, Estoniya hökuməti qərara almışdır ki, əgər Yudeniç ordusu sərhədi keçsə, onu tərk-silah etsinlər.

"Deyli meyl" qəzetəsi Helsinqforsdan [Helsinkidən] xəbər verir ki, general Yudeniç komandanlıqdan imtina edərək istefa vermişdir. Ordu komandanlığını Estoniya generalı Laydoner qəbul etmişdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Telefon xəttində**

Məsai Nəzarəti Vükəla Şurasına [Əmək Nazirliyi Nazirlər Kabinetinə] işbu məzmunda bir müxtirə [rəsmi məktub] təqdim etmişdir:

*"Hökumətin 25 təşrini-əvvəl tarixli qərarına baxmayaraq, fəhlələrin məvaciblərinin 50 faiz artırılması məsələsi qövldən feilə [sözdən işə] gətirilməmişdir. Zira telefon xətti sahibi Bierinq qəti surətdə imtina edir. Rica edirəm ki, ehtimal ediləcək tətilin önünü almaq üçün təşrini-saninin 26-nadək Bierinqi məvaciblərin artırmasına məcbur etmək haqqında tədabiri-lazimə ittixaz edilsin [lazım gələn tədbirlər görülsün]."*

**Məvaciblərin artırılması**

Məsai Nəzarəti işbu təşrini-saninin 25-də Etilaf [Uzlaşma] Komisyonu iclası təyin etmişdir. İclasda Baş məsai müfəttişi, İxtilaf Komisyonu sədri, Kənar [Liman] xidmətçiləri Mərkəzi komissiyasının sədri və "Qafqaz-Merkuri", "Vostoçnoye", "Rus", "Samolyot" vapor cəmiyyətləri nümayəndələri iştirak edəcəkdir. İclasda kənar xidmətçiləri məvaciblərinin artırılması məsələsi müzakirə ediləcəkdir.

**Tətil ətrafında**

Bakı Müstəhkəm Dairəsi hərbi general-qubernatoru Murad Giray Tlexas cənabları elektrik cəmiyyəti fəhlələrinə məlum etmişdir:

1) Yeddi günədək – təşrini-əvvəlin [oktyabrın] 1-nədək olan təşrini-əvvəl ayı əlavəsi 40 faiz artırılmış məvaciblərin hesabına olaraq verilməlidir. Artırılmış məvaciblər götürüldükdə, bütün məvacib və 360 manat əlavə, 33 % və 15 % nəzərə alınmalıdır.

2) Təşrini-əvvəlin 1-dən etibarən mənzil kirayəsi, hamam pulu və nəqliyyat parası haqqını qayda üzrə, yəni mənzil kirayəsi ailədarlara 50 manat, bekarlara [subaylara] 25 manat, hamam pulu ailədarlara 15 manat, bekarlara 6 manat, nəqliyyat pulu hamıya 10 manatdan verilməlidir.

3) Fəhlələrə, ailəli və ailəsiz təfavüt yoxdur, gündə öz qiymətinə 3 girvənkə bişmiş əkmək verilməsi təmin edilir.

4) 22 və 23 təşrini-sani günləri məvacibləri bütünlüklə verilməlidir.

5) Digər məsələlər ümumi neft mədənləri fəhlələri tələbatı ilə bərabər həll olunacaqdır.

6) 22 və 23 təşrini-sani tətilinə görə heç kəs məsul deyildir.

**Dövləti gəlirin artırılması**

Maliyyə Nəzarəti 1920-ci sənəsi gəlirini artırmaq məqsədilə ərazi vergisi, mədən vergisi və əlavəli mədən vergilərin artırılmasını ehtimal edir.

Lazımi qanun layihəsi hal-hazırda hazırlanmaqdadır. Ən yaxın zaman təsvib [təsdiq] üçün Vükəla Şurasına idxal ediləcəkdir.

**Yeni veksel kağızları**

Maliyyə naziri həzrətləri 100 min manat və 200 min manat pul işlərində iki növ yeni veksel kağızlarının çıxacağını qərara almışdır.

**Dövləti gəlir vergisi**

Maliyyə Nəzarəti hal-hazırda xüsusi bir qanun layihəsi tərtib verməkdədir ki, dövləti gəlir vergilərinin dəyişməsini havi olacaqdır [əhatə edəcəkdir].

**Tamaşaxanalar haqqında**

Maliyyə Nəzarəti ən yaxın zamanda xüsusi bir nizamnamə hazırlayacaqdır ki, tamaşaxanalardan alınan vergilərin xüsusi markalar vasitəsilə deyil, bilet dəftərlərindən əvvəl vergi alınacaqdır.

## BƏLƏDİYYƏ VƏKİLLƏRİ SEÇKİSİ

### 6

### BƏLƏDİYYƏ İDARƏLƏRİNDƏN NƏLƏR GÖZLƏYİRİZ?

Bakı Bələdiyyə İdarəsinə 10 milyon manat borc vermək məsələsi müzakirə edilən zaman Parlamanda məbus [millət vəkili] əfəndilərdən birisi şəhərin xərclərindən bəhs açaraq tibbiyyə və sihhiyyə [gigiyena] işlərinin Bələdiyyə İdarəsi üzərində ağır bir yük olduğunu qeyd və neçə vaxt bundan əvvələdək yalnız bir Mixaylovski xəstəxananın bütün şəhər ehtiyacını görməkdə olduğunu bəyan edir, deyirdi ki, şimdi əgər Bələdiyyə İdarəsi bir çox xəstəxanalar saxlayırsa, burası heç də onun vəzifəsi deyildir və hökumət gərək bu işləri öz əlinə alsın.

Bunu buyuran əfəndi kəndisi də şəhər işlərində çox çalışmış, təcrübəli bir bələdiyyə vəkili və tanınmış bir camaat xadimidir.

Fəqət bizcə, bələdiyyə vəkillərinin bu fikri yanlışdır.

Maarif məsələsindən bəhs edici 5-ci məqalədə qeyd etmiş olduğum üzrə, Azərbaycan hökuməti həmişə və hər cəhətdən camaatın ehtiyacını bilərək, ödənməsi üçün hər növ tədbirlər görür, milyonlarla pul sərf edir, həm etməlidir də!

Lakin həyatın doğurduğu hər bir məsələdə camaat, hökuməti yalnız buraxmamalı və hər bir işdə ona kömək etməlidir. Kömək də nə qədər müntəzəm və mütəşəkkil olsa, şübhəsizdir ki, nəticə və mənfəəti də o qədər böyük olar. İştə bu məsələdə dəxi bələdiyyə idarələri mühüm rollar oynaya bilərlər və oynamalıdırlar.

Ələlxüsus böyük müharibənin fəna nəticələrindən olan yoxsulluq, bahalıq və sairə kimi amillər xəstəliyin intişarına [yayılmasına] səbəbiyyət verdiklərindən, qabaqkı zamanlara nisbətən şimdi xəstələrin miqdarı onlarca qat artıq olduğundan, bu halda bələdiyyə idarələri borcludurlar ki, tibbiyyə və səhiyyə işlərinə çox diqqət və əhəmiyyət versinlər.

Tibbiyyə və səhiyyə işlərinə diqqət verilsin dedik.

Fəqət diqqət yalnız bir, ya bir çox xəstəxanalar açılmasından ibarət olmamalıdır. Əvvəlcə xəstəliyi doğuran amillərə diqqət vermək və zail etmək [aradan qaldırmaq], azarın qabağına sədd çəkmək, ondan sonra isə xəstəliyə mübtəla olanları sağaltmaq fikrinə düşmək lazımdır.

Məsələn, xəstəliyin intişarı ilə mübarizə qəsdilə görülən tədbirlərin birincisi kanalizasiyadır. Böyükləri deməyirəm, bir çox xırda şəhərlər qədər də olsa, Bakı Bələdiyyə İdarəsi bu anadək bir mühüm məsələyə diqqət verməmiş və bu uğurda lazımi təşəbbüsatda bulunmamışdır. Halbuki şəhər əhalisinin səhhətivücudunu təmin və xəstəliyin intişarı ilə mübarizə uğrunda kanalizasiya məsələsi birinci rol oynayır.

Saniyən [ikincisi], Azərbaycan şəhərlərində bir çox xəstəkliklərin artmasına, mövcud olan müsəlman hamamları və ümum füqəranın gedə biləcəyi şəhər hamamı yoxluğu çox xidmət edirlər. Bu məsələ kərratla da [dəfələrlə də] qaldırılmışdır. Fəqət bu zamanadək natəmiz hamamların sihhiyyə [gigiyena] qanunlarına müvafiq bir hala gətirilməsi yolunda nə kimi tədbirlər görülmüşdür? Yaxud füqəra camaat üçün Şəhər İdarəsi tərəfindən pulsuz, yaxud ucuz hamamlar təsis edilmişlərmidir?

Nəhayət, sihhiyyə nöqteyi-nəzərindən küçələrimiz nə haldadır?

Biz görən, yəni şəhərin kənarlarındakı küçələr sihhiyyə qanunu əvəzinə xəstəlik artmasına xidmət edər bir haldadırlar. Küçələr natəmiz, hər qədəmdə laşə [leş, heyvan ölüsü], hər qədəmdə zibil, xülasə, azar salan amillərdən heç birisi olmazsa, küçələrimizin natəmizliyi kifayətdir.

Bu surətlə, xəstəliklərin qabağını almaq üçün görülməli tədbir və təşəbbüslər lazımdır.

Keçəlim xəstələrin sağalması uğrundakı təşəbbüslər və tədbirlərə.

Əvvəla, Azərbaycanda öylə bir şəhər yoxdur ki, kafi miqdarda təbib və xəstəxana mövcud olsun. Doğrudur, Azərbaycanın bütün qüvveyi-tibbiyyəsi Bakıda toplanmışdır və Bələdiyyə İdarəsi tərəfindən bir neçə xəstəxana açılmışdır. Lakin əvvəla, bu ancaq Bakıda böylədir, sair şəhərlərdə isə bambaşqadır. Saniyən [ikincisi], Bakının özündə də camaat üçün kafi miqdarda təbib və xəstəxana yoxdur; çünki xəstəliyə mübtəla olanların və həkimə, mərizxanaya [xəstəxanaya] ehtiyacı olanların ən çoxu, bəlkə yüzdə doxsan faizi füqəra təbəqədəndir. Aya [görəsən], bunların ehtiyacını ödəmək üçün lazım gələn miqdarda şəhər xəstəxanası varmı? Bunların həpsinə müalicə edəcək miqdarda şəhər təbibi varmı? Öylə bir təbib varmıdır ki, bir fəqirin evinə dəvət edilsin və pul verilməsin?

Bu sualların heç birisinə "əvət" cavabı vermək çətindir.

Bu xüsusda müsəlmanların ehtiyacından ayrıca bəhs etmək lazım gəlir, çünki hər işdən ziyadə xəstəxana məsələsində müsəlmanlar zatən fəna bir mövqedə bulunurlar.

Ümuma məlumdur ki, Azərbaycanın heç bir şəhərində müsəlmanlar, xüsusən müsəlman arvadları xəstəxanalardan lazımınca istifadə etməyir və edəmməyirlər. Çünki müsəlman məişətinin başqalığı heç vaxt nəzərə alınmamışdır.

Məsələn, türk-islam qadınları üçün bu vaxtadək Azərbaycanın heç bir şəhərində bir dənə də olsun təvəllüdxana [doğum evi] açılmamışdır. Halbuki təvəllüdxananın ümumiyyətlə və xüsusən şəraiti-cədidəmizdən [yeni şəraitimizdən] dolayı türk-islam qadınları üçün nə qədər əhəmiyyəti olduğunu kimsə inkar edəmməz.

Bərəkət versin ki, son zaman Qazızadə Gövhər xanım Bakıda bir təvəllüdxana açmışdır. O da xüsusi təşəbbüsdür.

Bələdiyyə idarələri isə bu vaxtadək bu uğurda heç bir iş görməmişlərdir.

Ona görə, biz yeni bələdiyyə idarələrindən tələb etməliyiz ki, əvvəla, xəstəlik intişarının önünü almaq üçün kanalizasiya məsələsinə əhəmiyyət versin; mümkün olduğu qədər şəhər hamamları, bələdiyyə camaşırxanaları, təthirat [təmizləmə] kameraları, hifzüssihhə mərkəzləri təsis etsinlər. Saniyən, hər növündən olmaq şərtilə şəhərlərdə o qədər xəstəxanalar açılsın ki, bir xəstə dərmansız, müalicəsiz qaytarılmasın. O qədər ki, ümum füqəra pulsuz müavinəti-tibbiyyədən istifadə edə bilsin. Hətta xüsusi təbiblər olsun ki, xəstəxanaya gələ bilməyən fəqir xəstələrin evinə gedib pulsuz müalicə etsinlər. Salisən [üçüncüsü] və xüsusən müsəlmanların ayrıca şərait altında yaşadıqları nəzərə alınaraq, onlardan ötrü xüsusi xəstəxanalar açılsın. Böylə xəstəxanalarda bizim şəriətimiz və milli adətlərimizin tələb və icab [vacib] etdiyi hər bir şərait nəzərə alınaraq, yemək-içmək, hətta xidmətçiləri belə həman şəraitə müvafiq olsun.

Xüsusi olaraq, Musa Nağıyevin xəstəxanası məsələsini də qeydlə, Bakı Bələdiyyə İdarəsinin bu məsələyə də bir an əvvəl əncam verilməsi uğrunda təşəbbüsdə bulunmasını tövsiyə ediriz.

İştə, yeni bələdiyyə idarələrindən tibbiyyə və sihhiyyə işlərində biz bu tədbirlərin görülməsini tələb ediriz və etməliyiz. Fəqət bunu da tələb edə bilmək üçün bələdiyyə məclislərinə o adamları seçməliyiz ki, bu proqramla çalışacaqlarına və çalışa biləcəklərinə bizi inandırsınlar.

*Xəlil İbrahim*

## İDAREYİ-MƏHƏLLİYYƏLƏRƏ (ZEMSTVOLARA) DAİR

Rus istibdadı əhalini hər haqdan məhrum etdiyi kimi, mədəniyyətin intişarına [yayılmasına] və məişətin təmininə çalışan idarələrin də qapılarını əhali üzünə bağlamışdı. Burada camaatın hədsiz ehtiyaclarını müdafiə edə biləcək nümayəndələri bulunmazdı. Camaat idarələri polis məmurlarının keyfəmayəşasına [kefinə, özbaşınalığına] buraxılmışdı. Bu haqsızlıq İkinci Aleksandrın dövrünə qədər davam edə bildi. 1864-cü ildə Rusiyanın daxili vilayətlərində idareyi-məhəlliyyələr [yerli özünüidarə qurumları] (земскія управленія) təsis edilmişdir. Sonraları ənvai-təhdidlə [məhdudiyyətlərlə] məhəlliyyələrin haqlarını qısaltdılar, süni məmuriyyətlər yaratmaqla xalq zindəganlığını [dolanışığını] daraltdılar. Bununla belə, məhəlliyyələr rus köylüləri üçün ən faydalı müəssisələr düzəltdi və camaatın da gözləri açıldı, məktəbə, elmə rağib oldular [rəğbət etdilər].

Fəqət bu azacıq nemətdən də qafqazlıları məhrum etdilər. Əlli beş ildir ki, qafqazlılar fəryadlar qopardılar, məhəlliyyələrin bu vilayətlərdə də təsisini istədilər. Amma hökuməti-müstəbidə Qafqazdan gələn ah və nalələrə qarşı kar və lal qaldı, darülfünun və idareyi-məhəlliyyə kimi ali müəssisələri bizdən əsirgədi, bu nemətlərə nail olmaq üçün qafqazlıları qabil və müstəid [istedadı çatan] bir camaat sanmadı.

Azərbaycan vilayətlərində idareyi-məhəlliyyə təsisi üçün xüsusi və müfəssəl bir layihə tərtib verilmişdir. Olsun ki, bir neçə günədək bu layihə Parlamana daxil edilib, ənqərib [yaxın] zamanda təsdiq və qəbul edilsin.

Madam ki, layihə Parlaman tərəfindən hələ təsdiq edilməmişdir, onu tənqid edib qüsurunu göstərmək mətbuatın borcudur. Bu tənqid haqlı olarsa, söz yox ki, Parlaman əzalarına da [üzvlərinə də] təsiri olar. Bu nöqteyi-nəzərdən mətbuat tərəfindən vaqe olan mülahizə və mütaliələr də mövqeyində [yerində] olar.

Üç milyon nüfusu olan bir məmləkətin hər yerində indiyədək görülməmiş bir idarəni vəz etmək [qurmaq] və bunun icrası üçün müfəssəl və əlverişli bir qanun layihəsini tərtib vermək çox da asan işlərdən deyildir. İdareyi-məhəlliyyənin ənvaı [növləri] çoxdur. Yevropa məmləkətlərinin hamısında bulunan idarələrin biri-birindən az da olsa, fərqləri vardır. Bunları yerli-yerində öyrənib Azərbaycan əhlinin məişətinə yarar və layiqli göstərmək üçün sənələrcə buna vaxt və əmək sərf etmək lazımdı.

İştə, idareyi-məhəlliyyəyə aid yazılmış layihənin bəzi qüsurları, zənn edirəm, vaxtın təngliyi [darlığı, azlığı] cəhəti ilə baş vermişdir. Vaxtın azlığı nə dərəcədə layihə tərtibinə sirayət etməyini bilmək üçün bəzi maddələrin bizim

aramızda uyğunsuz qalacağına işarə etmək kifayətdir.

Məsələn, layihədə göstərilmişdir ki, məhəlliyyə seçkiləri yekşənbə [bazar] günləri, yaxud əhalinin bikar qaldığı bayram günlərində icra etməlidir. Halbuki Azərbaycan türklərinin həftə başındakı tətili cümə günündən ibarətdir.

Həmçinin layihədə seçki məsələlərindəki qanunsuzluğa qarşı yapıla biləcək şikayətlərin məhəlli-müraciətini [müraciət yerini] göstərərək, məhkəmənin dördüncü dərəcəsi "senat" (Правительствующій сенатъ) da qeyd edilmişdir. Fəqət Azərbaycanda hələ üç dərəcədən artıq məhkəməmiz yoxdur:

1) Məhkəmeyi-ibtidaiyyə (Мировые Судьи);

2) İstinaf (Окружный Судъ) və:

3) Təmyiz (Судебная Палата).

Məhkəmənin dördüncü dərəcəsi olmadığı cəhətlə, bunun öhdəsinə düşən vəzifəni Ədliyyə Nəzarətinə həvalə etməli idi və layihədə şikayətlərin axırıncı məhəlli-müraciəti Nəzarət gərək olaydı.

Deməк ki, layihənin bəzi cəhətləri içində yaşadığımız şəraitə səbq edilməmişdir [uyğunlaşdırılmamışdır]. Burasını yəqin ki, Parlaman əzaları nəzərdə saxlayacaqlar.

Lakin layihə başdan-başa ruscasının bədəli [qarşılığı] olmayıb, az da olsa, bəzi cəhətləri təğyir tapmışdır [dəyişmişdir]. Burada onlardan bir neçə mühümlərini göstərməliyəm.

Rus idareyi-məhəlliyyələri üç təbəqə olduğu kimi, Azərbaycanınkı da öyləcə olmalıdır. Fəqət birinci təbəqə Rusiyada sərhəd və sınırı [hüdudları] məhdud bulunan "volost" idarəsi (волостное земство) olduğu halda, Azərbaycanda sərhədi qabaqca göstərilməmiş uçastok idarələri (участковое земство) olacaqdır. Uçastokların ədədini və hər uçastokun sərhədlərini qəza idarələri (Уѣздное земство) müəyyən qılacaqdır ki, bu üsul, məncə, ruslarınkından daha faydalıdır. Onlarınkı dəftərxanalarda məmurlar əli ilə təqsim [bölündüyü] və müəyyən edildiyi halda, bizimki əhalinin öz nümayəndələri və camaat işlərinə yaxından bələd olmuş şəxslərin əli ilə göstəriləcəkdir. Təbii ki, hər üç ilin nəticəsi sayəsində uçastokun cəsaməti [böyüklüyü] ya artar, ya da azalar.

İkinci təbəqə – qəza məhəlliyyələri hər iki məmləkətdə birdir.

Üçüncü təbəqə – Rusiyanın quberniyasında bir "vilayəti-məhəlliyyəsi" (Губернское земство) mövcud ikən, Azərbaycanda yalnız bir dənə "mərkəz idareyi-məhəlliyyəsi" (Центральное земство) olasıdır. Əlbəttə, üç quberniyalıq bir ölkədə ayrı idarələrin təsisinə ehtiyac yoxdur. Bunların hamısı bir mərkəzə tabe edilərsə, xüsusi nəzərlərə yol verilməyib, tamam məmləkətin ehtiyacı rəfinə [aradan qaldırılmasına] hamılıqla çalışılar. Əlavə məsarif cəhətindən də bu üsulun faydası çoxdur. Zira üç quberniya idarələrinin məxarici, təbii ki, bir mərkəzi idarənin məxaricindən üç dəfə çox olar.

Seçki üsulu Gürcüstanda olan kimi, burada da siyahı təriqi [yolu] ilə icra ediləcəkdir. Bu üsul, məncə, Azərbaycan dairəsində çox da əlverişli gərək olmasın. Azərbaycan köylülərinin ən çoxu, məlum olduğu üzrə, savadsızdır. Savadsızların da siyahı vasitəsilə vəkil intixabları [seçməkləri] çətin bir işdir. Zənnimcə,





seçki üsulu üçün ayrı bir yol aramalıdır ki, savadsızlar da özgənin müavinətinə möhtac qalmayıb, istədikləri şəxsləri müstəqillən seçə bilsinlər. Bunun üçün partiyalarda savadsızlara aid icra edilən üsulları ətraflıca araşdırmaq icab edir [lazım gəlir].

Layihənin bir təfavütü də budur ki, Bakı şəhəri qəza məhəlliyyəsindən ayrılıb şəhər dairəsində xüsusi bir məhəlliyyə idarəsi təşkil edəcəkdir. Axırıncı statistik siyahılarından anlaşılır ki, Bakı şəhərində bu yaşamaqda olan 400 minə qədər can vardır. Halbuki Bakının mahalında, kəndlərində bu miqdarın yarısı qədər ya ola, ya olmaya. Məlumdur ki, məhəlliyyə vergiləri yalnız kəndlərin və qəsəbələrin təmirat və abadlığına gərək sərf edilsin. Böylə olan surətdə, Bakı şəhərini Bakı qəzasına mülhəq edib [birləşdirib], 400 min nəfərdən yığılacaq vergiləri köy camaatının təmiratına sərf etmək, şəhərlilərin haqqına təcavüz deməkdir. Bunun üçün şəhərin qəzadan ayrılmasını biz də faydalı sanırız. Hətta bu üsul ilə Gəncə, Şəki və Şuşa şəhərlərinin də xüsusi idarələrə ayrılmasını məsləhət görürüz.

Haqqı-intixabı [seçmək haqqı] olmayanların arasında əsgəri məmurların, əsgərlik vəzifəsindən fərar edənlərin və bir də israf xərcli şəxslərin adları layihədə qeyd edilmişdir ki, bu da rus qanunlarında görülməmişdir.

Əsgəri məmurların intixaba iştirak etməklərindən nə kimi bəlalar törəyir – bunu biz 1917-ci ilin seçki işlərində müşahidə etmişik. Həmçinin vətən müdafiəsindən boyun qaçıran ağaların da camaatın milli və mədəni işlərinə müdaxilələri ədalətdən kənardır.

İsraf xərclilərə gəldikdə, bunların da ixtiyarı yəqin onun üçün alınmışdır ki, pul zoru ilə camaatı iğfal etməsinlər [aldatmasınlar, yoldan çıxarmasınlar].

Bir fərq dəxi fövqəladə məclislərin dəvəti bəhsində vardır. Bu fövqəladə məclislərin dəvəti üçün bizim layihəyə görə vəkillərin dörddə biri, Gürcüstan qanununa görə beşdə biri və rus qanunlarına görə də vəkillərin ədədi müəyyən olunmayaraq bir neçə şəxsin tələbi ilə məclis dəvət edilə bilər. Zənnimcə, rus qanunu bizimkindən səlahiyyətlidir. Millətin fəlakətli günlərində məmləkətin ətrafına dağılmış vəkillərin dörddə birindən məclisin dəvətinə riza alıncaya iş-işdən keçmiş olar. Gözləniləcək bəlanın önü vaxtlı-vaxtında alınmazsa, böyük müsibətlər üz verər. Onun üçün məclis dəvət edən vəkillərin ədədi gərək məhdud olmasın.

Burada bir məsələ tövlid edir [meydana çıxır] ki, hədd qoyulmazsa, hər yerindən qalxan cüzi bir işdən ötrü vəkilləri təşvişə salıb hər üç gündə bir dəfə fövqəladə məclis qurarlar. Bu kimi ehtiyatların, əlbəttə, yeri vardır. Lakin bunun üçün də xüsusi bir qərar qoymaq olar ki, beyhudə və əbəs yerə fövqəladə məclisləri dəvət edənlərin cəzaları vardır.

Buraya qədər rus qanunları ilə layihə arasındakı fərqlərdən bəhs edildi.

İndi bir qədər də layihənin xüsusi cəhətlərindən danışmalıyam.

Bunların ümdələri ikidir: biri vaxta və biri də vəkillərin ədədinə aiddir.

Layihə mövcibincə [layihəyə əsasən], vəkillərin adi iclasları ildə bir dəfə vüqu bulacaqdır – uçastok məclisləri eylülün

[sentyabrın] 15-dən, qəza məclisləri təşrini-saninin [noyabrın] 1-dən və mərkəz məclisi də kanuni-saninin [yanvarın] 15-dən sonra dəvət ediləcəkdir.

Azərbaycan xalqının qismi-əzəmi köçəri tayfası olaraq yay fəslini dağlarda keçirirlər. Eylülün 15-də, yəni birinci dəvət başlanğıcında köçərilər yaylaqlardan qışlaqlara qayıtmış olurlar. Fəqət qışlaqlara qayıdarkən dərhal biçilmiş taxılları xırmanda döyüb yığışdırmağa məşğul olurlar. Bunların xırman, bostan və bağ işləri uzanıb qışın əvvəllərinədək gedir. Yalnız qış fəsli bizim əkinçilər bikar olurlar ki, məclis dəvətlərini də həmin qış fəslində icra etməlidir. Vacib deyil ki, səneyi-mülkiyyə ilə səneyi-şəmsiyyə [mülki illə günəş (təqvim) ili] ikisi də bir gündə başlasın. Qoy idareyi-məhəlliyyələrin sənəsi bahardan başlasın. Bunun bir eybi yoxdur.

Fəqət məclislər öylə bir zamanda dəvət edilsin ki, əhalinin bikar günlərinə təsadüf edilsin. Böylə olarsa, köylülər iş vaxtında işlərindən pərakəndə düşməyib, bikar günlərində məhəlliyyə işlərindən məhrum qalmazlar.

Bizim təsəvvürümüzə qalarsa, vaxt fəqərələrini [maddələrini] bu qərar ilə dəyişdirməlidir: uçastok məhəlliyyə məclisləri təşrini-saninin [noyabrın] əvvəlinə, 40 gün ondan sonra qəza məclisləri və yenə 40 gün də bundan sonra mərkəzi məhəlliyyə məclisini dəvət etsinlər. Bu minval ilə şubatın [fevralın] axırınadək məclis işləri bitib qurtarar. Yeni səneyi-mülkiyyənin əvvəli bahar fəslinə təsadüf edər və əhali də şüğlündən [işindən] kənar düşməz.

Vəkillərin ədədinə gəldikdə, burada da bəzi səhvlər vardır. Məsələn, Gəncə ilə Nuxa hər biri on nümayəndə verdikləri halda, Şuşa şəhəri doqquz nümayəndəyə malikdir. Halbuki nüfusca Gəncə şəhərinə Nuxa tay deyildir. Əlavə, qələbəlik cəhəti ilə Gəncə şəhərindən sonra ikinci dərəcədə Şuşa şəhəri olub, on nümayəndəyə də malik gərək o olaydı.

Qalan şəhərlərin nümayəndələri barəsində deməyə bir sözümüz yoxdur. Çünki əlimizdə buna dair istatistik məlumatı cəm deyildir.

Yalnız bunu deyə bilərəm ki, ümumən nümayəndələrin miqdarı gərək azalsın. Çünki vilayətlərdə, mahallarda yetişmiş ziyalıların ədədi çox azdır. Məhəlliyyə ehtiyaclarını rəf etmək [ödəmək] üçün bunların ədədi bu dəfə kifayət etməyəcəkdir.

Əlavə, məsarif cəhəti ilə bu ixtisarın faydası çoxdur. Binaənileyh [ona görə], bu təklifimiz hüsn-təvəccöh qazanmış olarsa, layihədə göstərilən miqyasın həddi də dəyişdirilməlidir.

Layihənin şərhi üçün yazılmış xüsusi risalədə deyirlər ki, mükəmməlliyyətcə məhəlliyyə qanunları hankı dərəcəyə varır-varsın, yenə nöqsandan xali olmaz. Çünki bu qanunlar dəftərxanalarda yazılıb, əhalinin məişətinə hələ tətbiq edilməmişdir. Tətbiq edildiyi halda nöqsanları aşkara çıxar.

Burasını biz də etiraf edirik ki, bu qanunlar təsis ediləcək yeni idarələrdə işlədilməzsə, eyib və nöqsanları da zühura çıxmaz. Onun üçündür ki, idareyi-məhəlliyyələrin ilk dövrü üç il olmayıb, bir ilin müddətinə qoyulmuşdur. Bu





bir ilin fəaliyyəti idarələrin əhaliyə qarşı fayda və zərərlərini göstərərsə, sonrakı illərdə bunun çarələrini yaparlar.

Deməк ki, birinci il imtahan ilidir. Buna biz də şərik olub arzu edərdik ki, əvvəla, layihənin təsdiq və qəbulu təxirə salınmasın. Saniyən [ikincisi], seçki işlərinə şüru edib [başlayıb] bu tezlikdə qurtarılsın ki, il başına ay yarımlıq bir vaxt qalmışdır. Bu az vaxtda təhriri-nüfus [əhalinin siyahıya alınması] və siyahı kimi ağır işlərin öhdəsindən gəlmək mümkün olarsa, burası şayani-təhsin [alqışa layiq] bir hünərdir.

Layihənin müsbət cəhətlərini müfəssələn burada göstərməyin lüzumu yoxdur. Zira 60 səhifəlik və mətbu [çap edilmiş] bir layihənin ənvai [müxtəlif] fəsillərindən bəhs açmaq üçün qəzetə səhifələri buna kifayət etməzdi və təsdiq olmayınca da bu müfəssilata da ehtiyac yoxdur.

Parlaman tərəfindən qəbul edilərsə, türkcəyə tərcümə edilib əhali arasında intişarına [yayılmasına] da yəqinən səy və ehtimam göstəriləcəkdir.

*Fərhad Ağazadə*

**TƏBİİ SƏRVƏTLƏRİMİZ**
**- 1 -**

Azərbaycanda bir çox sərvət mənbələrimiz mövcuddur.

Bunlardan ancaq aləmə məşhur olmaqları ilə Bakı və ətrafı neft mədənləri və Gədəbəy mis mədəni nəzərlərdə cilvələnməkdədir.

Fəqət madam ki indi bir hökumət, bir məmləkət sahibi olaraq yaşayırız, o halda hər bir azərbaycanlının vətəni və milli vəzifəsidir ki, yaşadığı yerlərdə nə kimi sərvət mənbələri mövcud isə və onlardan nasıl istifadə edilmək qabil isə, onları bütün azərbaycanlıların nəzəri-diqqətinə verməlidir.

Bu nəhv [üsul] ilə, məşhur və məlum olanlardan başqa, gizlin və istifadəsiz qalan və əhəmiyyətsiz görünən bir çox sərvət mənbələrimizdən də istifadə edilməyə çalışılmalıdır.

İştə o zaman məmləkətimizin təbii sərvətlərindən bol-bol istifadələr edilər. Məmləkətdə böyük bir fəaliyyət başlanar. Daxili zənginliyimiz artar, hökumət gəliri də çoxalar. Cavan hökumətimiz də maddi zərurətdən dolayı tez-tez kağız paralar kəsməyə ehtiyac görməz, pullarımızın etibarı artar.

Bu xüsusda ən böyük vəzifə məmləkətimizin zənginlərinin, pullularının, ticarətlə məşğul olanlarının öhdəsinə düşməkdədir.

Hökumətdən hər şeyi bəkləmək olmaz. Hökumətin fəaliyyətinə əhalinin də yardımı olmalıdır. Əhalinin süstlüyü, acizliyi məmləkəti atil [fəaliyyətsiz, tənbəl], bərbad edəcəyi kimi, o məmləkət əhlinin fəaliyyəti, huşyarlığı [ağıllı, ayıq-sayıq olması], ticarətçiliyi də məmləkəti dirildər, tərəqqi etdirər, zənginləşdirər.

Tacirlərimiz indi olduqca cürətli olmalıdırlar, madam ki Nikolay zamanında olan maneliklər əvəzinə şimdi ticarət aləminə dair hökumətdən mümkün olan köməklikləri görmək olur, o halda tacirlərimiz şimdi arı kimi işləməyə başlamalıdırlar.

Tacirlərimiz şimdi tənbəl, aciz və rahat durmamalıdırlar. Azərbaycandan çıxıb xaricənin rahat olan yerlərinə səfərlər etməlidirlər. Batuma, İstanbula, İtaliyaya, Fransaya, Anqliyaya, Amerikaya qədər gedib, o yerlərlə ticarəti əlaqələr bağlamalıdırlar.

Mümkün olan qədər tezliklə Azərbaycanın mühüm yerlərində azərbaycanlılar mütəəddid [çoxsaylı] kompaniyalar, şirkətlər təsis etməlidirlər. Hökumətin rəsmi təsdiqnamələri ilə təsis olunan bu kimi Azərbaycan kompaniyaları, şirkətləri xaricəyə gedib İtaliyanın, Fransanın, Anqliyanın, Amerikanın tacirləri ilə, ticarət və sənaətxanaları [ticarət və sənaye müəssisələri] ilə əlaqə peyda etməlidirlər.

Avropa tüccarları bol-bol yığılmış olan mallarının satılması üçün bu kimi ticarəti əlaqələr yapmağa hər vaxt, bilxassə şimdi olduqca məmnun olarlar.

Diqqət edilərsə, indi tamam mənası ilə bu hallardan Batumun rumları, Qafqazın erməniləri istifadələr edib milyonlar qazanmaqdadırlar.

Fəqət ortada tənbəl və aciz Azərbaycan müsəlmanları görünməkdədirlər.

Ticarət aləmində özgələrin fəaliyyəti və istifadəsi müqabilində biz azərbaycanlıların çalışması hamballıqdan başqa bir şey deyildir.

Zira cürətsiz və qorxağız.

Halbuki cürət və mətanətlə Avropa və Amerika ilə ticarətə girişərsək, bizim etibar və əmniyyətimiz başqalarından artıq olduğu üçün, Avropa və Amerika ticarət aləmində böyük rollar oynaya bilərik. Cibimizə və məmləkətimizə böyük-böyük mənfəətlər gətirə bilərik.

Keçirdiyimiz böyük Cahan müharibəsinin yalnız və məhza ticarət uğrunda başlandığını heç kəs bilməz deyildir.

İştə, Azərbaycan tüccarları da özlərinin zəkavətlərilə, fəaliyyətlərilə, ticarətlərilə özlərini Avropaya, Amerikaya tanıtmağa başlarsalar, əmin olalım ki, hökumətimizin xaricə ilə olan siyasətinə daha artıq təsiri və məmləkətimizə daha artıq mənfəəti olar.

Azərbaycan tacirləri əksəriyyən əllərində olan mətalarını ancaq Batuma aparıb, orada dəyər-dəyməzinə satırlar və başqaların gətirmiş olduğu malları qaçıncı [neçənci] əldən olaraq bahalı qiymətlərə alıb, Azərbaycana gətirirlər.

Bu isə tacirlik deyil, hamballıqdır.

Tacirlik odur ki, mətasını ən yuxarı ələ satsın və malı da ən birinci əldən alsın. Mənfəət o zaman mənfəət və tacirlik o vaxt tacirlik olar.

İştə görürüz, Batumda cüzi sərmayəyə malik olan rum, Avropaya gedir. Ora tacirlərilə, ticarətxanalarıyla, fabrikalarla, zavodlarla, sənaətxana ilə tanışlıq peyda edir. Ticarət edir, əlaqə başlayır. Bu vasitə ilə Avropanın milyonlarca hazır malını Batuma gətirib skladlarına doldurur. Sərmayəsiz ikən böyük ticarətxana sahibi olur.

Bir ermənini görürsən, nərədən gəldiyini sorursan, İstanbuldan, Neapoldan (İtaliya), Marsilyadan (Fransa), Mançesterdən (Anqliya) gəldiyini eşidirsən. İştə az zaman sonra bu erməninin də böyük ticarətxana sahibi və milyonlarca mala malik olduğunu görürsən. İranlılar da böylə...

* * *





Məsələn, götürəlim təbii sərvətlərimizdən olan ikranı – balıq kürüsünü.

Bu, Cənabi-Haqqın Xəzər dənizi ətrafında sakin biz azərbaycanlılara bəxş etdiyi ən mühüm təbii sərvətlərdən biridir. Dünyanın başqa dənizlərində bizimki kimi eyi kürü bulunmaz və bəlkə, heç yoxdur.

Cahanın mühüm qismi bizim neftimizə möhtac olduğu kimi, Avropa iştahalılarının böyük qismi də bizim ikramıza təhalüklə [böyük həvəslə] iştaha-avərdir [iştaha salır], hərisdir.

Binaənileyh [ona görə], bu mətamızın qədrini eyicə bilməliyiz. Batuma, İstanbula götürüb də pudundan min manat filan kimi mənfəətlərlə satıb qayıtmayalım. Mətamızı hədər etməyəlim.

İkramızı Avropanın mühüm ticarət mərkəzlərinə götürməliyiz. Həm də bu kimi Azərbaycan mətalarının ticarətini azərbaycanlılar bizzat [şəxsən] kəndilərinə münhəsir [məxsus] etməlidirlər. Hökumət də buna olduqca diqqət verməlidir.

Ticarət Nəzarətimiz məmləkət mətalarının satılmasında olduqca bəsirətli olmalıdır, durəndiş [uzaqgörən] bulunmalıdır. Azərbaycan mətalarının Azərbaycan tacirləri əli ilə xaricəyə, Avropaya, Amerikaya aparılmasına fikir verməlidir və buna səy etməlidir.

Doqquz manat qiymətində olan kağız funt-sterlinqi indi Qafqazın doqquz yüz manatı müqabilinə sərf etməkdə olan London taciri, yeməyinə ləzzət bəxş edən ikramızı da o münasibətlə satın alıb, təamını ləzzətləndirməyə həvəskardır.

İştə, hökumətimizin savabdidi [razılığı] ilə xaricəyə aparılması lazım görülən Azərbaycan mətaları doğrudan-doğru Azərbaycan tacirləri vasitəsilə Avropanın, Amerikanın ticarət mərkəzlərinə götürülüb satılmalıdır.

Əvəzinə isə, məmləkətimizə lazım olan makinalar, camaatımıza gərək olan ləvazimat gətirilməlidirlər.

Bu xüsusa hərəkət vermək üçün Xaricə Nəzarətimizlə Ticarət Nəzarətimiz böyük fəaliyyət və məharət göstərməlidirlər.

İştə bunun üçün də bu nəzarətlərin başında duran nazirlərimiz artıq diqqət verməlidirlər. Bu nəzarətlər hər zaman fəal, mahir və işinə aşina əllərdə bulunmalıdır.

Məmləkətimizin tərəqqisinə, təalisinə [ucalmasına] bu nəzarətlərin böyük təsiri olduğunu hər firqəmiz və camaat karkünlərimiz [işgörənlərimiz] hər daim nəzəri-diqqətə almalıdırlar.

*M. B.*

## BAKI XƏBƏRLƏRİ

### Ticarət iskələsində

Kaspi dənizi Mayak və losiya müdiri Su nəqliyyatı müdiriyyətinə xəbər vermişdir ki, ... adasında işıq yanmağı təcdid [bərpa] etmişdir. Poqorelı Plitada isə rüzgar olduğundan işıq yandırılammamışdır.

Kurinskaya kamen mayakında işıq makinası xarab olduğundan naşi [ötrü] müvəqqəti olaraq işıq yanmayır, ən yaxın zamanda işıq yandırılacaqdır.

**Tövqifat [həbslər]**

Srağagün gecə axşam saat 7 yarım radələrində Fəhlə Klubu ətrafı polis tərəfindən mühasirə edilib, orada olanların pasport və vəsiqələri təhqiq edilmişdir. Nəticədə, 40 nəfərədək işsiz tövqif [həbs] edilmişdir.

**Gecə kursları**

Cəmiyyəti-maarifi-iraniyan “Tərəqqi”[nin] kişilərdən ötrü məccani [pulsuz] açdığı gecə kurslarına müdavimlər qəbul edilir. Xahiş edənlər axşamlar saat 8-də məktəbə (Sadovı, nömrə 19) müraciət etməlidirlər.

**BİRJADA**

Kerenski minlik 800-1025 manata qədər, 250-lik kəndi qiymətindən 10 faiz və xırda 20 faiz əskikdir.

Nikolay 5 yüzlüyü 900-1500 manata qədər, yüzlüyü 200-300 manata qədər və xırdası 50-90 faizə qədərdir.

Türkiyə kağız lirəsi 220 manat və Zaqafqaz bonu min manata 40 manat fəzlədir. Türkiyə altun lirəsi 1025 manat, imperial 800 manat, altun onluq 1200 manat və Avstriya altunu 2300 manatdır.

Gümüş manat 95 manat və xırda gümüş para 40 manatdır.

Bakı bonunun min manatı İranda 3 tümən 4 qran olmuşdur.

Susinin topu 1060 manata gedir.

**FİRQƏ VƏ CƏMİYYƏTLƏR**

**Cəmiyyəti-Xeyriyyədə**

Zəngəzur qaçqınlarından beş nəfər çocuq Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi tərəfindən Yetimlər yurduna göndərilmişdir.

**Yetimlər yurdunun Cəmiyyətə verilməsi**

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Yetimlər yurdunun Müsəlman Cəmiyyəti-Xeyriyyəsi təhti-idarəsinə [tabeçiliyinə] keçirilməsi haqqında eylədiyi təklifə cavab olaraq, Cəmiyyəti-Xeyriyyə Nəzarətə bəzi təkalif pişnihad etmişdir [Nazirliyə bəzi təkliflər təqdim etmişdir].

**Yeni qaçqınlar**

Pəncşənbə [cümə axşamı] günü, təşrini-saninin 20-də şəhərə 195 nəfər yeni qaçqın varid olmuşdur [gəlmişdir]. Bunlar Cəmiyyəti-Xeyriyyə tərəfindən təmin edilib, şənbə günü ayın 22-də Ermənikəndinə göndərilmişdirlər.

**Qaçqınların köçürülməsi**

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi idarəsinin verdiyi qərara görə, şəhərdə olan qaçqınların hamısı Ermənikəndinə göndərilməlidir. Binaənileyh [ona görə], Dövlətoğlu təkyəsində olan 60 nəfər və Səfa məktəbi binasında olan 167 nəfər, cümlətanı 227 nəfər qaçqın Ermənikəndinə göndərilmişdir. Şəhərdə qalan qaçqınlar da bu günlərdə Ermənikəndinə göndəriləcəkdirlər.

**İclas**

Pəncşənbə günü, təşrini-saninin 20-də Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi idarəsinin Qaçqınlara müavinət edən komisyonunun iclası axşam saat 6-da Hacı Qasımovun sədarəti ilə açılmışdır.





Komisyon əzalarından [üzvlərindən] doktor Ordubadski, Həmid ağa Cavanşir, Mütəallimlər [Məktəblilər] İttifaqı tərəfindən Tağı Əliyev, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən [Məhəmmədəli] Veysov, Ünas [Qadınlar] Cəmiyyəti-Xeyriyyəsi tərəfindən Pəri xanım Topçubaşova, “Azərbaycan” qəzetəsi mühərrirlərindən Xudadat bəy Əzizbəyli və Cəmiyyəti-Xeyriyyə idarəsi üzvü Hacı Yusif Mehdiyev iclasda hazır idilər.

Sədr məsaili-yövmiyyəni pişnihad edib [gündəlikdəki məsələləri təqdim edib], müzakirə edildikdən sonra böylə qərar verilmişdir:

1) Qaçqınlar nəfinə [xeyrinə] olaraq cəbə ianəsi [ianə qutusu vasitəsilə toplanan ianə] toplamaq üçün ianə verənlərin döşlərinə vurmaq üçün qaçqınlar məişətindən bir şəkildən 250 min dənə sifariş etmək.

2) Cəbə ianəsi toplanan gün əhalini ianə verməyə tərğib etmək [rəğbətləndirmək] üçün şəhərdə 19 müəyyən yerdə divarda camaata müraciətnamələr asmaq və bu müraciətnamələrin tərtib edilməsi Əliheydər Babayevə və Mirzə Məhəmməd Əliyevə həvalə edilmişdir.

3) İanə toplamaq üçün cəbələri doktor Bəhram bəy Axundovdan Mirzə Məhəmməd Əliyev təhvil alıb gətirməlidir.

Bundan başqa, bir qaç məsələlər də müzakirə edilib məclis qapanılmışdır.

**“Müsavat”da**

Hacıqabuldan teleqrafən Qars mahalından 4 vaqon mühacirin Hacıqabula yetişdiyini bildirməklə, onlara əlac haqqında müraciətdə bulunmuşlardı. Bu xüsusda Ümuri-Nafiə və Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] yazılmışdır.

**“Müsavat” qurultayı**

İşbu sənənin 2 dekabr[ın]da vaqe “Müsavat” qurultayına hələlik isimləri zeyldə mühərrər zəvat [adları aşağıda yazılmış şəxslər], şöbələrdən nümayəndə olaraq seçilmişlərdir:

Qalaqayından Məlikaslanov Əbdülkərim bəy;

Xıllıdan İbrahim Hacızadə;

Hacıqabul şöbəsindən Ağasadıq Axundzadə, Hacı Məhəmməd Piriyev, Mirzə Əmirxanov, Meyrud Həsənxan oğlu, Xələf Məhəmmədkərim oğlu, Məşhədi Məhəmməd Əbdüləli oğlu, Məşhədi Mürsəl Baba oğlu;

Ağstafa şöbəsindən Vəli Əfəndiyev və Cəlal Musa oğlu;

Gəncədən Məşhədi Əli Rəfiyev, Cavad əfəndi Axundzadə, Mirzə Cəfər Əsgərzadə;

Dəlilər şöbəsindən Sadıq Hacı Əliəkbər oğlu;

Gədəbəy şöbəsindən Rza Kərbəlayı Molla oğlu.

**Tərəqqi Cəmiyyətində**

Cümə günü, təşrini-saninin 21-i axşam saat 4-də Cəmiyyəti-maarifi iraniyan [İranlıların Maarif Cəmiyyəti] “Tərəqqi”nin növbəti idarə iclası təyin edilmişdi. İclas Xudadat bəy Əzizbəylinin sədarəti və [Həsənzadə] Mirzə Əbdüləlinin katibliyi ilə açılıb, zeyldəki [aşağıdakı] məsələlər həll edilmişlərdir:

1) Məlumdur ki, hər bir dövlət və millət maarif sayəsində tərəqqi peyda edib, fəqət nəşriyyat vasitəsilə kəndi ehtiyacatını öz vətəndaşlarına məlum etməklə bərabər, onun da ehtiyacından müxbir [xəbərdar] ola bilər və nəşriyyat sayəsindədir ki, o millətin ədəbiyyatı mükəmmələşib gündən-günə tərəqqi və pişrəft [irəliləyiş] peyda edə bilər. Və bundan dolayı o millətin ədibləri Azərbaycan kimi azadə bir cümhur məmləkətdə nəşriyyat vasitəsilə milliyyət nə olduğunu bildirməklə bərabər, millətini tərbiyə edə bilər. Binaənileyh [ona görə], müttəhidül-rəy [yekdil] olaraq cəmiyyət bir Nəşriyyat şöbəsi təşkil edilməsinə qərar vermişdir ki, bu şöbə gələcəkdə lazım gələrsə, cəmiyyətin naşiri-əfkarı olan [fikirlərini yayan] bir qəzetə də nəşr etsin.

Bu xüsusda daha da geniş və ətraflıca bir mərama nail olmaq üçün qərar verilmişdir ki, türkcə "Azərbaycan" qəzetəsində elan vasitəsilə cümə günü, təşrini-saninin 28-i səhər saat 10-da Bakıda olan ümum İran ziyalılarına müraciətlə bir iclas dəvət edilsin. Bunlar toplaşdıqda, işbu Nəşriyyat şöbəsinin əsaslı bir üsul ilə təşkili haqqında kəndi nəzəriyyat və məlumatını bəyan etməklə, cəmiyyətin bu şöbəsinin əbədi pişrəftinə müavinət göstərsinlər.

2) Cəmiyyətin kişilərdən ötrü açdığı gecə kursunda müdavimlərdən ötrü bir bufet açılması haqqında İran Cəmiyyəti-Xeyriyyəsindən icazə almaq üçün təhrirən [yazılı surətdə] müraciət edilməsinə qərar verilmişdir.

3) İdarə xadimi Eynullanın məvacibi ayda 200 manat artırılmışdır.

4) Keçən sənə Həsən Ziya nam bir mütəəllimə [şagirdə] 2000 manat idarə borc vermişdi ki, məzkur [adı çəkilən] Həsən Ziya bir xidmətə daxil olduqda, aylıq maaşının 10 faizini idarəyə verməklə qərzini əda etsin [borcunu qaytarsın]. İdarə aldığı məlumata görə, məzkur Həsən Ziya üç aydır ki, Bibiheybətdə xidmətə daxil olmuşsa da, borcunu əda etmək fikrinə düşməmişdir. Binaənileyh [ona görə], məzkura [deyilən şəxsə] idarə tərəfindən rəsmi bir kağız göndərilib, mütalibə [tələb] edilməsini qərarlaşdırılmışdır.

Bundan başqa, bir çox məsailicariyyə [cari məsələlər] dəxi müzakirə edilmişdir.

## AZƏRBAYCANDA

### Lənkəranda "Müsavat"ın qadınlar təşkilatı

Qadınlarımız da feilən siyasi işlərə daxil olurlar. İştə, Lənkəranda da "Müsavat" firqəsinin şöbəsində ayrıca bir qadınlar təşkilatı yapılmışdır. Keçən təşrini-əvvəl [oktyabr] ayının 31-də Lənkəranda M[əryəm] x[anım] Bayraməlibəylinin sədarəti altında gizli seçki üsulu ilə "Müsavat"ın qadınlara məxsus şöbəsi təşkil edilib, sədarətə də Məryəm xanım Bayraməlibəyli və katibliyə də S. Məhəmmədli xanım seçilmişdir.

* * *

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Lənkəran şöbəsinin sədri Lənkəran Türk ali-ibtidai məktəbinin müəllimi Yusif bəy Hüseynbəyzadə cənablarının fəaliyyəti ilə zeyldə mərqum [aşağıda yazılan] köylərdə şöbələr açılmışdır:

1) Qızılağacda şöbə açılıbdır, sədrliyə Şeyx Əsədulla Fətullazadə, katibliyə Əhməd Şükürzadə cənabları seçilmişlərdir.

2) Mahmudabadda sədrliyə Böyükağa bəy Talışxanov, katibliyə Rəzzaq Molaməhəmmədəlizadə cənabları seçilmişdir.

3) Biləsuvarda da şöbə açılıbdır. Sədrliyə Abbasqulu Nuruzadə, katibliyə Həsən Tağızadə cənabları seçilmişdir.

4) Şıxakəranda şöbə açılıbdır. Sədrliyə Molla Əliağa Kərbəlayı Mirzəzadə, katibliyə Molla Bəhram Qurban oğlu cənabları seçilmişdir.

5) Təngərudda şöbə açılıbdır. Sədrliyə Nəsrulla, katibliyə İbrahim Əfəndizadə cənabları seçilmişdir.

6) Astarada şöbə açılıbdır. Sədrliyə Haşım bəy İsmixanov, katibliyə Ətaulla Axundzadə cənabları seçilmişdir.

## GÜRCÜSTAN XƏBƏRLƏRİ

### Bolşevik çıxışları haqqında

Çoxatauridən Xalq qvardiyası baş qərargahına Quriyada bolşevik çıxışlarının tamamilə təsviyə [ləğv] edildiyini teleqrafla xəbər verirlər. Çıxışda iştirak edənlərin bir çoxu həbs edilmiş və çoxları öz razılıqlarıyla silahlarını təslim edirlər. Qiyamda iştirak edən Ergeta kəndinin əhalisi Çoxatauri cəbbəxanasından aparmış olduqları mitralyozu təslim etmişdirlər. Həbs edilənlər divaniörfə [hərbi məhkəməyə] verilməkdən ötrü Ozurgetə göndərilirlər. Bütün Quriyada intizam və asayiş bərpa edilmişdir.

### Gürcüstan Səlibi-əhmər nümayəndəsi İsveçrədə

İsveçrədəki Gürcüstan Səlibi-əhmər [Qırmızı xaç] nümayəndəsi Andriya Dekanozişvili Cenevrəyə varid olmuşdur [gedib çatmışdır]. Dekanozişvili beynəlmiləl Səlibi-əhmər Komitəsinə Gürcüstan Səlibi-əhmərinin fəaliyyəti haqqında bir bəyanat təqdim etmişdir.

### Saqareco qəryəsi əhalisinin tərkisilahı

Gecə, təşrini-saninin 19-da məhəlli [yerli] hökumət məmurları xalq qvardiyası dəstəsi müavinəti ilə Saqareco qəryəsini əhatə edərək əhalini tərkisilah etməyə başlamışdır. 100-ə qədər tüfəng alınmışdır.

### Borçalı qəzasında təlimi-ümumi

Gürcüstan Cümhuriyyəti müsəlman xalq məktəblərinin müfəttişi [Rza] Əlizadə cənablarının Borçalı qəzasında olan kənd məktəblərini təftişləri əsnasında Kəpənəkçinski və Qəhrəmalinski kəndləri camaatının rizası ilə yeni açılmış məktəblərdə 7 yaşından 12 yaşına qədər olan bütün kənd çocuqlarının ümumi təlim edilmələri haqqında priqovorlar [qərarlar] tərtib verilmişdir. Tərtib verilmiş priqovorlar Əlizadə cənabları tərəfindən Borçalı qəzası zemstvo idarəsinə göndərilmişdir.

## ERMƏNİSTANDA

"Slovo" qəzetəsinin İrəvan müxabiri yazır ki, şimdiki kabinə təşkili əsnasında Parisdən yeni və müştərək kabinə təşkili xüsusunda müzakiratda bulunmaqdan ötrü Poqos Nubar paşa mürəxxəslərinin [nümayəndələrinin] Ermənistana gəlmələri haqqında məlumat alınmışdı. Bu mürəxxəsin gəlməsi gözlənildiyindən, bir neçə portfellər azad qalmışdı. Oktyabrda Poqos Nubar mürəxxəsləri Tekyan və Ter-Stepanyans Parisdən varid oldular [gəldilər]. Onlarla hökumət arasında bir aya qədər davam edən müzakirat heç bir nəticə verməmiş və bu günlərdə sabiq Türkiyə və sabiq Rusiya ermənilərindən bir neçə nəfərin kabinə heyətinə cəlbi ilə yeni kabinə təşkilinə başlanılacaqdır.

**Paytaxt abadanlığı**

Bütün ev sahiblərinə küçələrdə elektrik lampaları qonulması Daxiliyyə naziri tərəfindən əmr edildiyi üçün küçələr lazımi surətdə işıqlandırılmışlardır. Şəhər idarəsi küçə və səkiləri nizam və tərtibə salmağa başlamışdır. Dəmiryol xətti şəhərin mərkəzinə qədər çəkilmişdir. Müvəqqəti vağzalın inşası və mövqifə mülhəq [stansiyaya bitişik] olan küçələrin döşənməsi qurtarmaq üzrədir.

**Amerikalılar Aleksandropolda**

Aleksandropolda amerikalılar qaçqın və çocuqların təmin edilmələri işlərinə ciddi surətdə çalışmaqdadırlar. Kazak qaraqolunda olan Yetimlər yurduna 4500 qədər yetimlər və ümumi yataqxanalarda 5000-6000 qədər qaçqın yerləşdirilmişdir. Toxucu, xərrat və başqa kargahxanalar [iş yerləri] işləməkdədirlər. Qaçqınlardan ötrü hamamlar inşa edilib açılmışdır.

## İZHARİ-TƏŞƏKKÜR

Məlum olduğu üzrə, şəhərin türk məktəblərində bir çox kasıb şagirdlər vardır ki, oxumaq üçün tədris ləvazimatına möhtacdırlar. Hətta öylə fəqir şagirdlər vardır ki, iki ay dərs müddətində bir dənə də olsun dəftər-qələm və kitab və qeyri dərs şeyləri ala bilməmişlərdir. Əlbəttə, bu kimi şagirdlər kəndiləri məlumatdan məhrum qalan kimi, siniflərində dərslərinin gedişinə zərər yetirirlər.

Bu gün hər hansı türk məktəbinə gedib və orada dərslərə hazır olarsanız, görəcəksiniz ki, şagirdlərin yarısı kitab-dəftərsiz olduqlarından, yazıb-oxuyan şagirdlərə həsrətlə tamaşa edirlər.

Əlbəttə, şu zavallı şagirdlərin halını gözəlləşdirmək, onların dərs ləvazimatını təhiyyə etmək [hazırlamaq], cəmiyyətlərin birinci vəzifəsidir.

Xüsusən Səkkizinci ibtidai türk məktəbi şəhərin füqəra məhəlləsində vaqe olduğundan, burada məktəblərin hamısından artıq yetim və kasıb şagirdlər var. Ona görə "Xidmət" istehlak cəmiyyəti həman Səkkizinci türk məktəbinin kasıb və yetim şagirdlərindən ötrü kitab, qələm və sair dərs ləvazimatı almaq üçün 1000 rublə ianə etmişdir.

Lihaza [buna görə], məzkur [deyilən] məktəbin Müəllimlər Şurası və Valideyn Şurasının idarəsi məzkur cəmiyyətə səmimanə təşəkkürlərini izhar edirlər.

*8-ci ibtidai türk məktəbinin müdiri*
*Ə[bdüləli] Vəlibəyov*





## TEATRO VƏ MUSİQİ

**"Leyli və Məcnun"**

Bu gün səşənbə günü, təşrini-saninin (noyabrın) 25-də axşam Dövlət Teatrosunda opera və teatro mövsümü açıldığı münasibətilə, Dövləti Teatro heyəti müdiriyyəti tərəfindən təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Hacıbəyli qardaşlarının yazmış olduğu məşhur "Leyli və Məcnun" operası.

Bu dəfə "Leyli-Məcnun" operası üçün xüsusi libaslar və yeni dekorasiyalar hazırlanmışdır. Xor və xoristkaların və qeyri iştirak edənlərin ədədi artırılmışdır. Böyük musiqi orkestri Müslüm bəyin təhtiidarəsindədir. Toy məclisi üçün xüsusi rəqs (balet) hazırlanmışdır.

Tamaşa axşam saat 8 tamamda başlanacaqdır. Biletlər teatrın kassasında opera qiymәti ilə satılmaqdadır.

Möhtərəm tamaşaçılardan rica olunur ki, ahəngi pozmamaq üçün ikinci zəng vurulduqdan sonra hər kəs öz yerində əyləşsin.

Gələcək tamaşa – cümə günü axşam, təşrini-saninin (noyabrın) 28-də "Əlmənsur" draması mövqeyi-tamaşaya qoyulacaqdır.

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Doktor**
**M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla ümum əhaliyə elan edir ki, bişmiş çörəyin girvənkəsi 5 rublə 20 qəpikdən ziyadə olmamaq üzrə "Sentrodom"un aşağıda zikr olunan dükanlarında satılacaqdır:

| Hankı polis məntəqəsindədir | Dükanların ədədi | Dükanların ismi | Ünvanları |
|---|---|---|---|
| 1 | 4 | Senrodomun 7 nömrəli dükanı<br>Senrodomun 8 nömrəli dükanı<br>Senrodomun 11 nömrəli dükanı<br>Senrodomun 17 nömrəli dükanı | Bayılda, meydanda, Elektriçeskaya sila qarşısında<br>Birinci Bayıl küçəsi ev nömrə 32<br>Bayılov-Bibiheybət<br>Tamojenaya nömrə 23 |
| 2 | 2 | 2-nci uçastkovı komitə dükanı<br>Sentrodomun 18 nömrəli dükanı | İçəri şəhər: Minarə və Başnya küçələrinin küncü, nömrə 7<br>Zavedenskaya nömrə 18 |
| 3 | 4 | 3-ncü uçastko-vı komitənin dükanı<br>Sentrodomun 3 nömrəli dükanı<br>Sentrodomun 14 nömrəli dükanı<br>Sentrodomun 16 nömrəli dükanı | Gimnaziçeski və Persidski küçənin küncündə 84<br>Aleksandrovski cərgələrdə nömrə 3, mizlərin nömrəsi 24<br>Aleksandrovski cərgələrdə nömrə 1, mizlərin nömrəsi 57<br>Aleksandrovski cərgələrdə nömrə 2, mizlərin nömrəsi 23 |
| 4 | 2 | 4-ncü uçastkovı komitənin dükanı<br>Sentrodomun 3 nömrəli dükanı | 3-ncü Paralelni və Apşeronski küçələrin küncündə<br>Şaxski küçə, konka dayanan yerdə |
| 5 | 2 | 5-nci uçastkovı komitənin dükanı<br>Sentrodomun 4 nömrəli dükanı | Staropoliseyski, nömrə 21<br>Petrovski meydan |
| 6 | 1 | 6-ncı uçastkovı komitənin dükanı | Serkovnı küçə, ... Palatanın qarşısında |
| 7 | 4 | 7-nci uçastkovı komitənin dükanı nömrə 1<br>7-nci uçastkovı komitənin dükanı nömrə 2<br>Sentrodomun 15 nömrəli dükanı<br>Sentrodomun 15 nömrəli dükanı | Telefonnı küçə 12, Vağzalnaya 11<br>Balaxanski və Bolşoy Morskoy küçələrin küncü<br>Telefonnı küçədə Yarmarka meydanında |
| 8 | 3 | 8-nci uçastkovı komitənin dükanı<br>Ermənikənd uçastkovı komitə dükanı<br>Babirovun dükanında | Stanislavski küçə 62<br>Ermənikəndi 6-ncı Naqornı və 8-nci Perevalnı küçələrin küncü<br>Ermənikəndi, 10-ncu Naqornı küçədə |
| 9 | 2 | Sentrodomun 1 nömrəli dükanı<br>Sentrodomun 2 nömrəli dükanı | Balaxanski şose və 5-nci Zavağzalnı küçədə<br>7-nci Zavağzalnı küçə 167 |
| 10 | 3 | 10-ncu uçastkovı komitənin dükanı nömrə 1<br>10-ncu uçastkovı komitənin dükanı nömrə 2<br>Sentrodomun 20 nömrəli dükanı | Qaraşəhər – Körpünün yanında<br>Ağ şəhər – Kaspi yoldaşlarının yanında<br>Qara şəhər 5-nci Zavağzalnı və 5-nci Çernoqorodski küçələrin küncündə |

*İmza etdi nazir müavini Əliyev*
*T-360*





**Berlin Darülfünunu doktoru**
**N. Melkumyan**

Daxili, zöhrəvi, sifilis, "606" və "914" müalicələrini qəbul edir. Hər gün səhər saat 8-dən 12-yədək, axşam saat 4-dən 7-yədək. Ünvan: Vorontsovski küçə nömrə 9-11. Kolyubakinski küçənin küncündə. Telefon nömrə 34-34.

*14075*

Mən Mirzə Əhməd Abbaszadə elan edirəm bundan irəi ya bundan sonra mənim adıma Yusif Abbaszadə hər kəsdən mal ala ya pul ala, mən cavabdehində deyiləm. Müşarülileyhin [deyilən şəxsin] əbədən [əsla] mənimlə bir əlaqə və rabitəsi yoxdur.

*14081*

**Elan**

Həmin sənədə təşrini-saninin 1-də "Azərbaycan" qəzetəsinin 235-ci nömrəsində pambıq toxumlarının ixracı xüsusunda verilən elana əlavə olaraq Ticarət, Sənaye və Ərzaq Nəzarətinə pambıq toxumlarının ixracı üçün ərizə verənləri Ticarət, Sənaye və Ərzaq Nəzarəti icazənamə almaqdan ötrü dəvət edir.

*İmza etdi: nazir [Ağa] Əminov*
*Müdir: [Abbasəli bəy] Makinski*
*T-353*

***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Bakı Bələdiyyə İdarəsi**

səh. 510. "Bandarnı": Bakıda, indiki Şəmsi Bədəlbəyli küçəsi.

**Könüllü ordu və**
**Kuban arasında ixtilaf**

səh. 511. "L'Europe orientali": Parisdə nəşr edilmiş bu jurnalın adı məqalədə latın əlifbasıyla yığılmışdır.

**Sülh ətrafında**

səh. 515. "Avamlar Kamerası": Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası.

"rübi-məskun": dünyanın, insan yaşayan dörddə bir hissəsi.

**Qəzetələrdən**

səh. 516. "Təncər": Mərakeşin şimalında, Cəbəllüttariq boğazı sahilində böyük liman şəhəri. Mərakeş 1912-ci ildə İspaniya və Fransa protektoratlıqlarına bölünərkən, ölkənin şimal hissəsi İpaniyanın nəzarətinə keçmişdi fəqət Təncər limanı uğrunda mübarizə davam edirdi və nəticədə, 1923-cü ildə bura "beynəlmiləl zona" elan edildi. Təncər 1956-cı ildə birləşmiş müstəqil Mərakeşin tərkibinə daxil oldu. Qəzetdə bəzən "Təncər" yerinə "Səncər" yazılmışdır.

**İdareyi-məhəlliyyələrə**
**(zemstvolara) dair**

səh. 523. "Bakı şəhərində yaşamaqda olan": qəzetdə "yaşamaqda olan" yerinə "bu miqdarın" getmişdir.

**Bakı xəbərləri**

səh. 527. "losiya": gəmi səfərlərinin ehtiyacı üçün dənizlərin və sahillərin təsviri.

“Poqorelaya Plita”: Kür çayının Xəzər dənizinə töküldüyü yerdən 12 mil şimal-şərqdə, dəniz dibinin yüksəlməsi nəticəsinə meydana gəlmiş ada olmuşdur.

“Kurinskaya kamen”: Xəzər dənizində, Bakı arxipelaqının cənub qurtaracağında Azərbaycan məxsus ada olan “Kür daşı” adası nəzərdə tutulur.





**Çərşənbə, 26 noyabr 1919-cu il, nömrə 330**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 3 rəbiüləvvəl sənə 1338. 26 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## “FENOMEN” TEATROSU
### Anons

Pəncşənbə günü noyabrın 27-ndə kinomatoqrafın əzim və möcüznüma tamaşaları “Kip – Kim – Kep” (6 hissədə). İştirak edirlər 5 məşhur adamlar: Kip rolunu ifa edir atlet, əvvəlinci Amerika çempionu Bibi Karpet; Kim rolunu xalqın məhbubu olan Samson; Kep rolunu Etninka Akzianit. Baş dolandırıcı oyunlar tamaşaçıların oyun əsnasında bütün diqqətini tamaşaya cəlb edəcəkdir.

*T-362*

## SİRK “MODERN”
### Mübarizənin son günləri

Hamı mübarizələr qətidir. Çaharşənbə günü noyabrın 26-nda 1919-ncu ildə. Bu gün 3 cift pəhləvan mübarizə edir. 1-nci: Yermak – Gənc Əli; 2-nci: Kalişeviç – Muznik; 3-ncü: Staroşvili – Buyvolov.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, tamam olacaqdır 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Sabah məşhur rus sportsmeni Yelizarovun 15 sənəlik yubileyi olacaqdır.

*14083*

## MÜSAVATIN ÜMUMİ İCLASI

“Müsavat” firqəsinin dekabr ayının 2-də Bakıda açılacaq ümumfirqə qurultayına hər yüz nəfərdən bir nümayəndə seçmək [üçün] işbu noyabr ayının 28-də cümə günü saat 10 tamamda Haşımovun mülkündə, “Müsavat”ın Bakı Komitəsində, Bakı firqə yoldaşlarının ümumi iclası vaqe olacaqdır. Şəhərdə olan bütün firqə üzvlərinin işbu iclasda hazır olmaları təmənna olunur. İclasa gələnlər özləri ilə bərabər firqə kartoçkalarını gətirməlidirlər.

Üçüncü dəfə elan edilməyə görə, bu iclas qanuni hesab ediləcəkdir.

*“Müsavat”ın Bakı Komitəsi*

*T-355*

## QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

**Mülkiyyə Baş Müfəttişliyindən**

Müdafieyi-Dövlət Şurasının 16 sentyabrda qəbul və təsdiq etdiyi Nizamnamə mövcibincə [Nizamnaməyə əsasən], Azərbaycanda yenidən ehdas edilən